## Bəxtiyar Vahabzadə – 100

# Bəşəriliklə milliliyin vəhdətindən qaynaqlanan əsərləriniz ölkəmizdə milli şüurun yüksəlməsinə güclü təkan vermişdir

“Sizin yaradıcılığınız Azərbaycan ədəbiyyatının inkişafında mühüm rol oynamışdır. Dərin məzmunu, yüksək poetik məziyyətləri və ictimai-fəlsəfi siqləti ilə səciyyələnən əsərlərin müəllifi kimi adınız ədəbiyyat tariximizə əbədi həkk olunmuşdur... Xalqımızın keşməkeşli taleyi, yaşadığı faciəli və əzablı günlər vətənpərvər övlad kimi daim sizi düşündürmüş, onun ağrı-acıları həssas qəlbinizi alovlandırdığı kimi, xoşbəxt günləri də sizi sevindirmişdir. Qanlı Yanvar faciəsi günlərində tutduğunuz əsl vətəndaşlıq mövqeyi öz tarixi əhəmiyyətini heç vaxt itirməyəcəkdir.

Vətənlə, xalqla, ana dilimizlə qırılmaz tellərlə bağlı olan hər bir misranızdakı hikmət ölkəmizin müstəqilliyi uğrunda vətənpərvər mübarizlərin yetişməsində böyük rol oynamış və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində bir örnək olmuşdur. Siz yüksək ideallar tərənnüm edən poeziyanızla millətin birliyinə, ləyaqətinə ehtiram hissləri aşılamış və onların təntənəsi uğrunda səbirlə, yorulmadan, ardıcıl mübarizə aparmısınız. Bəşəriliklə milliliyin vəhdətindən qaynaqlanan əsərləriniz ölkəmizdə milli şüurun yüksəlməsinə güclü təkan vermişdir...

Azərbaycan ziyalıları sizi təkcə bir şair deyil, həm də böyük tədqiqatçı alim, mahir pedaqoq və gözəl publisist kimi tanıyırlar. İdeyalarınızla pərvazlanaraq müstəqil həyata qədəm qoyan neçə-neçə tələbə nəsli bu gün nə vaxtsa sizi dinləməkdən, sizin tələbəniz olmaqdan sonsuz qürur və şərəf hissi duymaqdadır”.

**Ümummilli Lider Heydər Əliyevin Xalq şairi Bəxtiyar Bahabzadəyə 75 illik yubileyi münasibətilə ünvanladığı 15 avqust 2000-ci il tarixli təbrik məktubundan**

